# Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri bu ölkə KİV-inin diqqət mərkəzində olub

















**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) işgüzar səfəri bu ölkənin mediasının diqqət mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, BƏƏ-nin WAM Agentliyi, "Emarat əl Yom", "Əl İttihad", "Əl Xalic", "Əl Bəyan", "24.ae", "Al-Ayn", "Emarat News" qəzet və portallarında Əbu-Dabidəki Əl-Şati sarayında Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü haqqında geniş xəbərlər və məqalələr dərc edilib.

Materiallarda diqqətə çatdırılıb ki, dövlət başçılarının söhbəti zamanı iki dost ölkənin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlığı həyata keçirdikləri bildirilib, bu əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb. Eyni zamanda iki ölkənin müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyəti diqqətə çatdırılıb. Qeyd edilib ki, tərəflər Azərbaycanla BƏƏ arasında bərpaolunan enerji və iqtisadiyyatın şaxələndirilməsi üzrə digər sahələrdə planlar, konstruktiv birgə fəaliyyət imkanları ətrafında fikir mübadiləsi aparıblar.

Eyni zamanda bildirilib ki, dövlət başçıları qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən BƏƏ-nin evsahibliyi edəcəyi "COP-28" iqlim sammiti, bu mötəbər tədbirdə yaşıl iqtisadiyyat sahəsində proqramların təqdim edilməsi məsələlərini də müzakirə ediblər. Xəbərlərdə diqqətə çatdırılıb ki, prezidentlər İlham Əliyev və Şeyx Məhəmməd bin Zayed Al Nəhyan iki ölkənin müxtəlif sahələrdə böyük uğurlar qazandığını da qeyd ediblər. Prezident İlham Əliyevin həmkarı Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü BƏƏ-nin televiziya kanalları tərəfindən də geniş işıqlandırılıb. "Abu Dhabi TV", "Al Emarat", "Baynunah", "Dubai TV", "Al Dafra" telekanalları dövlət başçılarının müzakirə etdikləri məsələlər haqqında reportajlar yayıblar.

Müxtəlif KİV-də yayılan xəbərlərdə həmçinin Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında Azərbaycan Respublikasında 2 QVt gücündə Dənizdə Külək və Hidrogen Layihələrinin işlənməsinə dair birgə işlənmə sazişi, həmçinin 1 QVt gücündə Günəş Fotovoltaik və 1 QVt gücündə Quruda Külək Layihələrinin işlənməsinə dair birgə işlənmə sazişi imzalandığı vurğulanıb.